# Kredo

Tarix insanın əqidə və inam uğrunda mübarizəsidir!

Müstəqil ictimaisiyasi, publisistik qəzet №67-68 (1245-1246) 06 noyabr 2024-cü il Qiyməti 1 manat

Qəzet 1999-cu ilin oktyabrından çıxır

Azərbaycan
kitabxanası

# 8 NOYABR - ZƏFƏR GÜNÜ

# 9 NOYABR - BAYRAQ GÜNÜ




## Azərbaycan əsgəri

Qalx ayağa yeriş et, hücum marşı səslənsin,
Bəsdir tarixi yordum, Azərbaycan əsgəri!
Kimliyini bəyan et, düşmən səddini yar, keç,
Deyim yağını vurdum, Azərbaycan əsgəri!

Harayınla cavab ver torpağın yurdcanına,
Od düşsün yağıların varlığına, canına.
Ula, dağlar titrəsin səsin həyəcanına,
Türk ərəni boz qurdum, Azərbaycan əsgəri!

Sevgimlə süsləmişəm ulduzunu, ayını
Yer üzündə tapmaram sənin bircə tayını,
Canınla qoruduğun bu Vətən sarayını
Sənin sayəndə qurdum, Azərbaycan əsgəri!

Keşikdə dayanmısan Vətən başlanan yerdə
Əldə silah durmusan, torpaq daşlanan yerdə.
Güllələrə sipərsən səngər tuşlanan yerdə
Torpağım, evim, yurdum, Azərbaycan əsgəri!

Eşqimin sahibisən, örtülü sirr əvəzi,
Qəlbimin hakimisən, minimin bir əvəzi,
Məkkəmsən, Mədinəmsən, ən uca pir əvəzi,
Sənə təzimə durdum, Azərbaycan əsgəri!

Adın çəkilən yerdə varam deyənə sahib
Səni bağrına basıb özü öyənə sahib;
"Mən sahibəm" söyləyən hər kəsə yenə sahib,
"Sən" - dedi, kimdən sordum, Azərbaycan əsgəri!

Qəlbimin döyüntüsü sənin yeriş ahəngin
Dil əməl birliyində - düşüncədə hər rəngin,
Xələfliyə ərməğan qürur, hünər çələngin,
Vətənə dayaq ordum, Azərbaycan əsgəri!

*Əli Rza XƏLƏFLİ*
*20.09.2020*